# Qurban qəhrəman idi



*Əlibala Rəhimov,*
*Publisist, "Qızıl Qələm" mükafatı laureatı*

**(əvvəli ötən sayımızda)**

**Esse**

Sonralar siyasi fəaliyyətini Yerevanda deyil, Bakıda davam etdirən bu daşnak (demək yerinə düşər ki, Daşnaksütün partiyası 1890-cı ildə Tiflisdə türklərə qarşı yaradılan millətçi ittifaqdır) cildini dəyişərək olmuşdür müsəlman kommunisti, Moskvanın agenti, peşəkar donosçu, "Sosial-demokrat" və "Bakı Sovetinin Məlumatları" qəzetinin redaktoru. 11 Qızıl ordu Bakını işğal edərkən A.Mikoyan çox istədi ki, burda Xalq Komissarları Sovetinin sədri olsun, amma Leninin tapşırığı ilə bu vəzifəyə Nəriman Nərimanov təyin olundu. İki dəfə möhkəmcə qarşılaşmışdılar və hər dəfə pərt olmuşdur A. Mikoyan. Çünki həkim, yazıçı, dramaturq, öz millətinin qeyrətini çəkən N.Nərimanov insan sərrafı idi, gözlərinə baxan kimi bilmişdi Mikoyan alçağın, rəzilin, hiyləgərin birisidi.

Çox ehtimal ki, 1925-ci ildə Stalinin yan-yörəsində, böyür-başında hərlənən Mikoyanın N.Nərimanovun zəhərlənib öldürülməsində barmağı olub.

Fikir verin, Stalinin ölümü və... Xruşşov hakimiyyətdədir. Hamıdan əvvəl şəxsiyyətə pərəstiş haqqında hay-küy qaldıran Mikoyan utanıb-qızarmadan Yerevana gedir və "ellər atası"nın monumental heykəlini böyük izdiham qarşısında uçurub-dağıdır.

Bir az geriyə boylanaq. Bütün dövrlərdə neft Bakını fəlakətlərə sürükləyib. Zaman-zaman dünyanın böyük dövlətləri elə neftə, qaza görə Bakıdan dördəlli yapışıblar. İngilislər, Stalin, Hitler... daha kimlər-kimlər "dənizin sahilindəki bu qədim şəhər mənim əsarətimdə olmalıdır" demişdir.

Mövzumuzdan uzaqlaşmayaq. Bakıya ingilis ordusu daxil olub. 26 komissar məhv edilməlidir. Onları aparıb Türkmənistanın Ağcaqun səhrasında qətlə yetiriblər. Bir aydan sonra bir mömin müsəlman fikirləşib ki, onların cəsədini torpağa basdırmaqla Allahın savabını qazanar. Gölün vəhşi heyvanları, quşları bu insanların ətini çoxdan didib-parçalayıb. Quruca sümükləri qalıb. Mömin bəndə işini görərkən birdən heyrətlənir. "Onlar 26 idi, bəs niyə 24 cəsəd?..Demə, Bakıdan Krasnovodska gedən poroxodun kapitanını ələ alan A.Mikoyan və S.Şaumyan zirzəmidə gizləniblərmiş. Sonra onların ikisi də Krasnovodskda həbs olunubdur...

Beləcə, 15 iyul 1964-cü ildən 9 dekabr 1965-ci ilə kimi A.İ.Mikoyan SSR Ali Rəyasət Heyətinin sədri olmuşdur.

***

Çiskinli, yağışlı bir axşam. Yatmaq, yuxuya getmək istəmirəm. Bu gecəni payızın əlindən zorla almışam. Televizora diqqətlə, nəfəsi dərmədən baxıram və stress keçirməkdən qorxuram. Papirosa dərin qullaq vururam. Tüstü tavana dəyib qayıdır üstümə... Küsdürmüşdüm dostum qələmi, yenicə barışmışdıq. Qeydlər apararam. Nədən yazıram?.

Telegüzgüdə köhnə, sənədli film göstərilir. SSR xalq artisti, SSR Ali Sovetinin deputatı Rəşid Behbudovun rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı Teatrı Hindistanda qastrol səfərindədir. Kollektiv Dehlidən Bombeyə gedir. Gənc solist İlham deyir:

- Biz yolla gedərkən bələdçi sağ tərəfi göstərdi:

- Bura qəbrisitanlıqdır. Orda sizin həmyerliniz Şaumyanın məzarı var. Müəllimimiz təəccüblənir:

- Ola bilməz!.

- İstəsəniz göstərə bilərəm.

Avtobus dayanır, düşürük aşağı, baxırıq... Rəşid müəllim heyrətlənir. Həqiqətən böyük heykəl və s. Şaumyanın şəkli, doğum, ölüm tarixi əks olunub... Bələdçi bir neçə pozadan şəkillər çəkir və səhərisi onları verir ustadına.

Ceyran xanım söyləyir:

-1988-ci il hadisələri yenicə başlayanda Rəşid tribunaya qalxaraq M.S.Qorbaçovun üstünə qışqırır:

- Son qoyun mənim millətimə qarşı qətliam törədən ermənilərin azğınlığına!. Buyurun, 1918-ci ildə Bakıda minlərlə həmyerlimin ölümünə fitva verən daşnak S. Şaumyan sonra niyə Hindistana qaçıb?. Bu faktdır!.

- Yalandı, böhtandı.

Baxın, bu o alçağın Dehli qəbiristanlığında çəkilən şəkilləri və o, dəlil-sübut kimi, şəkilləri çırpır Qorbaçovun sifətinə.

Sonra Ceyran xanım deyir:

- Bakıda xəstə idi. Böyrəklərindən əziyyət çəkirdi. Cavadzadə ona məsləhət bildi ki, Kreml xəstəxanasında müalicə olunsun. O, Moskvada xəstə yatdı və demək olar, sağaldı. Vəziyyəti normal idi, deyib-gülür, danışırdı. Axşam ayrılanda mənə dedi:

- Çox yaxşıyam, ağrı-zad yoxdu... Darıxma mənim Ceyranım, gələn həftə qayıdarıq Bakıya.

Sabah, xəstəxananın elə dəhlizindəcə əli qoynunda, qəmli baxışlarla mənə baxan tibb işçisi xəbər verdi:

- Qara paltarınızı geyin xanım, artıq yoxdu o.

Azərbaycanı dünyaya tanıtdıran böyük sənətkar Rəşid Behbudovun ölümündə kimi təqsirləndirək?. M.S.Qorbaçovumu?. Bu fikrə düşsəm, ahıl yaşımda günah sahibi olmarammı?. Hər halda, R.Behbudovun sədaqətli ömür-gün yoldaşı Ceyran xanıma da inanmamaq olmaz!.

***

Vay-vay-vay, başım qarışdı, heç bilmədim Qurban- şir kimi ölkə rəhbəri A.Mikoyanın üstünə cuman o kişi harda qaldı, onun taleyi necə oldu?. Öldümü-qaldımı, dəlixanadadı, yoxsa bayılda?. Heç inanmağım gəlmir ki, bu neçə gündə Qurban Həsənov sağ-salamat ola. Və bu vaxt xəyal dünyamdan bir səs gəldi, ağıllı şeytan qulağıma pıçıldadı: "Niyə yatmısan fil qulağında, sənin ki, imkanın var Qurbanı görməyə. Rayon milis şöbəsinə rəhbərlik eləyən B. Dadaşovla dostluğun, isti münasibətin yoxdumu?. Çəkinmə, gecikmə, bu fürsətdən yararlan.

Bu yerdə yadıma düşür ki, bir zamanlar "Partizan Babaş" sənədli hekayəmi dərc etdiklərinə görə "Ədalət" qəzetinin rəhbərliyinə gec olsa da səmimi sevgilərimi bildirim.

Gecikmirəm, rəisin icazəsi ilə mən türmədəyəm, Qurbandan müsahibə alıram. Diqqətlə baxıram. Elə də canlı, cüssəli, yetənə yetib, yetməyənə daş atan insana bənzəmir. Fağır, yazıq, uzundraz bir kişidi. Məni tanıyır:

- Sən bizim Əskərabadla qonşu olan Aşağı Cürəli kədindənsən. Səhv etmirəmsə "Məhsul" qəzetində işləyirsən. Düzdü?.

- Hə, hə, doğru deyirsən, Qurban.

Söhbətimiz öz məcrasına düşür. Soruşuram:

- Niyə o gün, martın 26-da Mikoyanın üstünə cumdun, az qala öldürəcəkdin ölkə rəhbərini?.

Qeyzlənir, hirsli-hirsli deyir:

- Qoymadılar, tutdular məni, öldürəcəkdim daşnaq köpək oğlunu. Atamın qisasını alacaqdım ondan.

Bu nə sözdü? Nə ata, nə qisas?.

Papirosuna dərindən qullab vurur, keçmişinə qayıdır:

- 1918-ci ildə mənim 7 yaşım var idi. Dağlı məhəlləsində yaşayırdıq. Atam İbrahim başmaqçı idi. Evimizdən bir az aralı dükan açmışdı, onun-bunun köhnə, cırıq ayaqqabılarını yamayır, beş nəfərlik ailəmzə çörək pulu qazanırdı. Yadımdadır, mart ayında elə dükandaca onu güllələyib öldürmüşdü bolşevik libası geyinən erməni daşnaqları. Sonralar məlum oldu ki, bizim tərəflərdə komandir erməni Mikoyan olub. Onun, Şaumyanın əmri il Bakıda 10 mindən çox azərbaycanlı qətlə yetirilib. Uşaq, böyük, qoca, cavan günahsız müsəlman əhalisi güllələnmidi.

Atamın cənazəsini görən anamın qışqırtısı, başına, üzünə döyməsi hələ də gözümün qabağındadır... O gün, martın 26-da anamın ruhu məni yuxudan oyatdı:

- Dur ayağa, yatma bala, bir azdan Mikoyan gələcək Biləsuvara. Öldür onu, atanın qisasını yerdə qoyma! Nə günahın sahibi idi İbrahim?. Unutma ki, atasının qisasını ala bilməyən oğul mənə lazım deyil... Heyf öldürə bilmədim o əclafı.

Qurban Həsənovu, danışanda teztez "həri, həri, vaxsey, vaxsey" eləyən o kişini nə mühakimə elədilər, nə Bayıla göndərdilər. Bilirsiniz niyə?. O zaman Vəli Saraylı imzası ilə lətif, incə ruhlu şeirlər yazan, onları heç yerdə çap elətdirməyib, təkcə rəhmətlik şair Tofiq Bayrama oxuyan, Mikoyanın başına gələn hali-qəziyyətdən xəbər tutmuş Azərbaycan KP MK-nin birinci katibi Vəli Yusif oğlu Axundov raykomun birinci katibi Nağı Axundovu təklikdə qəbul edərək ona demişdir:

- Hər kimdisə, o şoferi çox incitməyin. Beləcə, Qurban türmədən buraxıldı, hətta avtobazada ona "ZİS-5" yox, "ZİS-150" avtomobili etibar olundu.

***

Sözsüz ki, Qurban milli qəhrəman idi. 1965-ci ildə ölkə rəhbəri A.Mikoyana qarşı hərəkəti onun geniş kütlə içərisində hörmətini, nüfuzunu göylərə qaldırmışdı.

Rayon camaatının ona sonsuz sevgisi, məhəbbəti var idi.

Qeyd etməyə bilmərik ki, həmin dövrə qədər rayonumuz Dağlıq Qarabağdan, ermənilərin məskunlaşdığı bölgələrdən nisbətən uzaqda idi. Biləsuvarlılar erməni məkri, hiyləsi, onların türk dünyasına, azərbaycanlılara qarşı soyqırım törətmələrinin canlı şahidi deyildilər.

Baxın, görün sonralar nələr baş verdi?.

... Əsgərabadlılar gecikmədən ümumi çağırdılar və Mikoyanın adından imtina etdilər, kolxozları "Şəfəq" adlandı.

... Dövlət rəsmi qalereyasında, idarə və müəssisələrdə, məktəblərdə "Azərbaycan Milli Qəhrəmanları" lövhəsində iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun portretnin sağ tərəfindəki marşal Baqramyanın şəkli tikə-tikə olunub zibil qutusuna atıldı.

Həftə bazarında, özü də bilmədən nehrə yağı satandan erməniçə qiymət soruşan bir kişini qadınlar ölüsünə çırpdılar.

***P.S: Oğlanları Orxan və Vaqiflə çay süfrəsi arxasındayam. Öyrəndim ki, ata yurdlarını yarı bölüb iki ev tikiblər. Mehriban dolanırlar. Valideynləri xeyli vaxtdır, Haqq dünyasına qovuşub. Məzarları şəhər qəbiristanlığındadır.***

***Sabahısı gedirəm qəbiristanlığa. Sağ olsun balalar, sayğı göstərərək əsl heykəl ucaldıblar. Sağda Qurbanın, solda Gülsabahın məzarı. Fatihə surəsi oxuyur və Allah-təaladan rəhmət diləyirəm onlara.***